

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 26 (21.436)

10 fevral 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimat mərasimi olmuşdur







Fevralın 9-da – Naxçıvan Muxtar Respublikasının yaranmasının 92-ci ildönümündə muxtar respublika Ali Məclisində 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninin, "Tərəqqi", "Dövlət qulluğunda fərqlənməyə görə", "Hərbi xidmətlərə görə" və "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının və vəsiqələrinin, 2014-2015-ci tədris ilində keçirilmiş "Ən yaxşı ümumi təhsil müəssisəsi" və "Ən yaxşı müəllim" müsabiqəsinin qaliblərinə mükafatların təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət mükafatlarına layiq görülmələri və Naxçıvan Muxtar Respublikasının 92-ci ildönümü münasibətilə təltif olunanları, onların timsalında muxtar respublika əhalisini, muxtar respublikanın inkişafında, sərhədlərinin və sabitliyin qorunmasında xidməti olanları təbrik edərək demişdir: Naxçıvan Muxtar Respublikası öz inkişaf mərhələsinə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində çatmışdır. Ulu öndərin Sovetlər Birliyi dövründə ölkəmizə rəhbərliyi zamanı Azərbaycan Konstitusiyasında Naxçıvan diyarı muxtar respublika kimi, müstəqillik illərində isə muxtar dövlət kimi təsbit olunmuşdur.

Ali Məclisin Sədri demişdir: Bu gün ulu öndərin siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişafa qovuşmuşdur. Ölkəmizin inkişafı sözdə və rəqəmlərdə deyil, həyata keçirilən tədbirlərdə, real işlərdədir. Bu işləri həyata keçirənlər isə Azərbaycan Respublikasının vətəndaşlarıdır. Çalışdıqları sahələrdə öz fəaliyyətləri ilə fərqlənən, ölkəmizin inkişafına töhfə verən insanların əməyi isə dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Bu gün təltif olunanlar da müxtəlif sahələrdə öz əməkləri ilə fərqlənən, nümunə göstərən insanlardır.

Ali Məclisin Sədri təltif olunanların bundan sonra da ölkəmizin inkişafına töhfə verəcəklərinə əminliyini bildirmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının orden və medallarının, eləcə də Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan Suliddin Əliyev, Sahib Həsənov, Şakir Ağalarov, Nurlan Həsənov, Vüqar Məmmədov və Yeganə Məmmədova minnətdarlıq edərək demişlər ki, bu gün ölkəmizdə, eləcə də muxtar respublikada bütün sahələr inkişaf etdirilir, geniş quruculuq işləri aparılır, sosial islahatlar həyata keçirilir. İstər Naxçıvan şəhərində, istərsə də ən ucqar dağ kəndində insanların yaşaması və işləməsi üçün hərtərəfli şərait yaradılmışdır. Dövlətimizin ali mükafatlarına layiq görülmək təltif olunanların hər birinin qurub-yaratmaq əzmini artırır. Bundan sonra da ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq ölkəmizin inkişafı və tərəqqisi naminə səylə çalışacağıq.

Daha sonra Ali Məclisin Sədri 2014-2015-ci tədris ilində "Ən yaxşı ümumi təhsil müəssisəsi" müsabiqəsinin qalibi olmuş Culfa şəhəri 2 nömrəli, Naxçıvan şəhəri 14 nömrəli və Ordubad rayonu Aşağı Əylis kənd tam orta məktəblərinə, eləcə də "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuş 5 müəllimə mükafatları təqdim etmişdir.

Naxçıvan şəhəri 14 nömrəli tam orta məktəbin direktoru Seymur Xudanov, Ordubad rayonu Aşağı Əylis kənd tam orta məktəbinin direktoru Vidadi Quliyev, "Ən yaxşı müəllim" müsabiqəsinin qaliblərindən Tahirə Qasımova mükafata layiq görülmələrini ölkəmizdə təhsilin inkişafına göstərilən qayğının daha bir ifadəsi kimi dəyərləndirmiş, bundan sonra da savadlı və vətənpərvər gənclərin yetişdirilməsi yolunda səylə çalışacaqlarını bildirmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Əhaliyə keyfiyyətli rabitə xidməti göstərilir

Muxtar respublikada 2016-cı ilin yanvar ayında da əhaliyə keyfiyyətli rabitə və poçt xidmətləri göstərilmişdir. Bu dövrdə yaşayış məntəqələrində, xüsusən də kəndlərdə yüksəkkeyfiyyətli rabitə xidmətinin təşkili diqqət mərkəzində saxlanılmış, Babək rayonunun Xəlilli, Şərur rayonunun Yuxarı Yaycı və Axaməd kəndlərində yeni avtomat telefon stansiyaları quraşdırılaraq istifadəyə verilmişdir. Eyni zamanda Şərur rayonunun Cəlilkənd, Qorçulu, Babək rayonunun Şəkərabad kəndlərində və Babək qəsəbəsində mövcud KAREL tipli avtomat telefon stansiyaları yeni nəsil avtomat telefon stansiyaları ilə əvəz olunmuş, muxtar respublikanın yaşayış məntəqələrində 25-i simsiz olmaqla, 206 yeni telefon nömrəsi istismara verilmişdir.

"Evədək optika" layihəsi üzrə görülən işlər yanvar ayında da uğurla davam etdirilmişdir. Ötən ay Ordubad rayonunun Biləv və Gilançay kəndləri arasında 12 min 136 metr, ümumilikdə isə muxtar respublikada 15 kilometrdən artıq fiber-optik kabel xəttinin tikintisi başa çatdırılmış, 16 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmişdir. Genişzolaqlı "Asinxron rəqəmsal xətləri" texnologiyası vasitəsilə yanvar ayı ərzində 321 abunəçi internetlə təmin olunmuşdur. Bundan başqa, ay ərzində "Naxtel"in daha 4 baza stansiyası qurulmuş və 4-cü nəsil baza stansiyalarının sayı 85-ə çatdırılmışdır. Həmçinin "Naxtel"in Billing sistemi üçün əsas və ehtiyat server avadanlıqları alınıb gətirilmiş, "Orakl" şirkətinin mütəxəssisləri tərəfindən montaj işləri başa çatdırılmışdır. Hazırda 1-ci mərhələ üçün nəzərdə tutulan proqram təminatının yüklənməsi işləri davam etdirilir.

Muxtar respublikada müasir poçt xidmətinin təşkili diqqət mərkəzində saxlanılır. Ötən ay Xəlilli və Yurdçu kəndlərində yeni poçt bölmələri istifadəyə verilmiş, "Naxçıvanpoçt"un kompüter şəbəkəsinin Mərkəzi Bankın Hökumət Ödəniş Portalına qoşulması prosesi başa çatdırılmışdır. Bu da sistemə qoşulmuş bank-maliyyə və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılmasına imkan verir. Ay ərzində muxtar respublikadakı poçt bölmələrində 549 min 258 manat elektrik enerjisindən, 1 milyon 509 min 984 manat təbii qazdan, 62 min 68 manat isə sudan istifadə haqqı yığılmışdır.

Bu gün yeni texnologiyaların imkanlarından istifadə dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərin həcmini artırır. Yanvar ayında Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin uşaq hüquqlarının mühafizəsi üzrə elektron məlumat bankı hazırlanaraq serverə yerləşdirilmişdir. Dövlət orqanlarında vətəndaşlardan daxil olan ərizə və şikayətlərə nəzarət-keçid müddətində baxılmasının təmin edilməsi üçün nəzarət sistemi istismara verilmişdir.

Yeni texnologiyalar sahəsində ixtisaslı mütəxəssislərin hazırlanması bu gün qarşıda duran əsas vəzifədir. Yanvar ayında Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində kompüter kursları üzrə təhsil almaq üçün 35 dinləyicidən ibarət 3 ümumi və 15 fərdi qrup yaradılmışdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

***"Naxçıvanqaz" İstehsalat Birliyi muxtar respublika ərazisində təbii qaz nəqlinin etibarlılığını və fasiləsizliyini təmin etmək məqsədilə ardıcıl tədbirlər görür. Bu işlər cari ilin yanvar ayında da davam etdirilmişdir.***

## Ötən ay abonentlərin mavi yanacaqla təminatı diqqətdə saxlanılmışdır

Belə ki, istehlakçılar tərəfindən Qaz İstismarı idarələrinin Qəza Dispetçer xidmətlərinə daxil olmuş 1592 çağırışa operativ baxılmış, 2173 halda qaz sızması aşkarlanaraq aradan qaldırılmışdır. Qış aylarında artan tələbat nəzərə alınaraq sutka ərzində qazın təzyiqi və sərf olunan qazın həcmi qeydiyyata alınmış, mütəmadi olaraq texniki baxış keçirilmiş, lazımi yerlərdə təmir işləri görülmüşdür. Həmçinin yararsız qaz sayğaclarının istismardan çıxarılması və yeni sayğacların quraşdırılması işləri də davam etdirilmiş, Naxçıvan şəhərində 88 ədəd smartkarttipli sayğac quraşdırılmışdır.

Təmir işləri üçün tələbata uyğun ehtiyat bazası da yaradılmış, bütün maşın-mexanizmlər və qaynaq avadanlıqlarının istismara yararlılığı təmin olunmuşdur. Bu dövrdə yeni xətlər çəkilərkən, eləcə də yerdəyişmə və təmir işləri aparılarkən 17 min 134 paqonometr müxtəlifölçülü borulardan istifadə olunmuş, 132 mənzil, fərdi ev və müxtəlif təyinatlı obyekt qazlaşdırılmışdır.

Təbii qazdan səmərəli istifadə və təhlükəsizlik tədbirlərinə əməl olunması məqsədilə reydlər və əhali arasında maarifləndirici tədbirlər yanvar ayında da davam etdirilmişdir. Kadr potensialının artırılması, qaz istismarı sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsinə də diqqət artırılmış, şəhər, rayon Qaz İstismarı idarələrinin bir qrup işçisi Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər" peşəsi üzrə kurslara cəlb olunmuşdur.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***



# İqtisadiyyat

Naxçıvan məhsulları

## “Naxçıvan bağları”nın yerli tərəvəz məhsulları paytaxt Bakı bazarında






***Özəl sektorun inkişafı daxili bazarın qorunmasında, idxaldan asılılığın aradan qaldırılmasında, əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsində əhəmiyyətli rola malikdir. “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda da özəl sektorun inkişafı əsas yer tutmuş, bu məqsədlə davamlı tədbirlər həyata keçirilmiş, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilmiş, yeni meyvə bağları salınmış, istixana kompleksləri yaradılmışdır. “Naxçıvan bağları” istixana kompleksinin yaradılması da bu sahədə həyata keçirilən tədbirlərdəndir.***

Sahibkar Elçin Bağırov bizimlə söhbətində qeyd etdi ki, bu mühüm əhəmiyyətli sahənin inkişaf etdirilməsi üçün biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim edilmiş və fonddan 1 milyon 500 min manat güzəştli kredit ayrılmışdır. 2013-cü ilin mart ayında 10 min kvadratmetr, may ayında isə 1500 kvadratmetr sahəsi olan yeni istixana kompleksi fəaliyyətə başlamışdır. Burada Hollandiya və Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılmış, anbarlar, qazanxana, yeməkxana və işçilər üçün otaqlar yaradılmış, istixana üçün yeni kənd təsərrüfatı texnikaları alınmışdır. Ümumilikdə, yeni istixana kompleksinin tikintisinə və müasir texnoloji avadanlıqların alınmasına 2 milyon 100 min manat vəsait sərf olunmuşdur ki, bunun 600 min manatı daxili imkanlar hesabına ödənilmişdir.

İstixana kompleksində Zirə, Tovuz sortu olan pomidor yetişdirilmiş və sifarişə uyğun, nəfis tərtibatla bəzədilmiş 7 kiloqramlıq karton taralarda topdansatış bazalarında, 250-500 qramlıq və 1 kiloqramlıq plastik taralarda isə pərakəndə satış mağazalarında Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınmış “Naxçıvan bağları” əmtəə nişanı ilə satışa çıxarılmışdır. Bu, muxtar respublikamızda həmin məhsula olan tələbatın az bir hissəsini ödəyirdi. Artan tələbatın ödənilməsi və istixana kompleksinin fəaliyyətinin genişləndirilməsi məqsədilə 2014-cü ilin yanvar ayında daha bir biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunmuşdur. Ümumi dəyəri 3 milyon 150 min manat qiymətləndirilən layihənin reallaşması üçün 2 milyon 500 min manat dövlət maliyyə dəstəyi göstərilməsi, qalan 650 min manatın isə sahibkarın daxili imkanları hesabına ödənilməsi nəzərdə tutulmuşdu. 2014-cü ilin fevral ayında Sahibkarlığa Kömək Fondundan 2 milyon manat güzəştli kredit verilmiş və layihənin icrasına başlanılmışdır. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 45 min 620 kvadratmetr torpaq sahəsi ayrılmış, əraziyə “Qarabağlar” kəhrizindən 17 kilometr, Böyükdüz kəndi ərazisində yerləşən arteziandan isə 1,5 kilometr məsafədə plastik borularla su xətləri çəkilmiş, torpaq işləri görülmüş, transformator yarımstansiyası qoyulmuşdur.

Kompleksin daxilindəki ayrı-ayrı bölmələrdə ümumi uzunluğu 26 min 600 metr olan 80 santimetrdən 1 metrədək dərinlikdə drenaj xətləri çəkilmiş, xüsusi örtükləri olan süzgəcli borular salınıb mərkəzi xəttə birləşdirilmişdir. Bu da yay mövsümündə suvarma zamanı torpağın tərkibində olan artıq suyun axıdılmasına, şoranlaşmanın qarşısının alınmasına, qış mövsümündə isə xüsusi pompalarla drenaj xəttinə vurulan isti hava ilə şitillərin vegetasiya dövrünün normal keçməsinə imkan verir. İstixana kompleksində avtomatik rejimdə işləyən iqlim-nəzarət sistemləri, isitmə və havalandırma avadanlıqları quraşdırılmışdır. Türkiyənin “Alarko” şirkətindən alınmış 6 ədəd sobanın 3-ü təbii qazla, 3-ü isə həm təbii qaz, həm də dizel yanacağı ilə işləyir ki, bu da müəssisəni fasiləsiz istiliklə təmin edir. Hər birinin tutumu 225 ton olan 4 yerüstü qapalı hovuz quraşdırılmışdır. Bu, su xəttində hər hansı bir nasazlıq yaranarkən fasiləsiz su ilə təminatda mühüm rol oynayır. Burada su təchizatı mərkəzi idarəetmə sistemi ilə təmin olunmuş avadanlıqlar vasitəsilə aparılır. Su təmizləyici qurğudan keçdikdən sonra torpağın tərkibi haqqında laborator analizin cavablarına uyğun ayrı-ayrı çənlərdə hazırlanmış gübrələr suya əlavə olunmaqla istixanaya ötürülür və suvarma damcı üsulu ilə həyata keçirilir.

İstixana kompleksində toxumcücərtmə, şitilyetişdirmə, pomidor, xiyar, çiyələk, dibçək gül toxumları yetişdirilən ayrı-ayrı bölmələr və turşubağlama sahəsi yaradılmışdır. İllik istehsal gücü 1,2-1,5 milyon ədəd olan şitilyetişdirmə bölməsində istehsal olunan şitilin 250 min ədədi kompleksin daxili tələbatını ödəyir, qalan hissəsi isə muxtar respublikanın istixana komplekslərinə və fərdi torpaq mülkiyyətçilərinə satılır. Toxumcücərtmə bölməsində tələbata uyğun olaraq xüsusi qəliblərdə müxtəlif sort toxumlar cücərdilir. Çiyələkyetişdirmə bölməsində su kanalı ilə təchiz olunmuş novdanlarla üçmərtəbəli əkin sistemi quraşdırılmış, torpağa üzvi gübrə və torf qarışığı tökülərək əkin aparılmışdır. Turşubağlama sahəsində isə məhsuldarlıq dövrü başa çatan pomidor, xiyar kollarından toplanan yetişməmiş məhsullar 200 kiloqramlıq taralarda turşu qoyulur və sonrakı mərhələdə 2, 3, 5 və 10 kiloqramlıq taralara qablaşdırılıb satışa çıxarılır.

İstixanada müasir kənd təsərrüfatı texnikalarından istifadə, yeni texnologiyaların tətbiqi yüksək məhsuldarlığa nail olunmasında və əhalinin keyfiyyətli məhsullarla təminatında əhəmiyyətli rol oynayır. Kompleksdə becərmə tədbirlərində üzvi gübrələrdən istifadə edilir, pomidor və xiyar kollarının tozlanması xüsusi arı ailələri vasitəsilə aparılır. Bu da məhsuldarlığın təbii yolla artırılmasına, mövsümi ekoloji təmiz məhsul istehsalına imkan verir. Ekotester vasitəsilə məhsulun tərkibində olan radiasiya və nitratın (azot) müəyyən olunmuş normaya uyğunluğu mütəmadi olaraq nəzarətdə saxlanılır. İllik istehsal gücü min ton olan istixana kompleksinin fəaliyyətə başlaması qış aylarında daxili bazarın tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə əlverişli şərait yaradır.

Artan tələbatın ödənilməsi üçün ötən il istixana kompleksində 3 min kvadratmetr ərazidə çiyələkyetişdirmə sahəsinin yaradılmasına başlanılmış, daxili suvarma şəbəkəsi və ikipilləli novdanlar qurulmuş, Türkiyənin “SBR” şirkəti ilə bağlanmış müqaviləyə əsasən, 48 min ədəd çiyələk şitili alınıb gətirilərək əkilmişdir. Həmçinin yüksək müalicəvi əhəmiyyəti ilə seçilən, ürək-damar sisteminin xolesterindən təmizlənməsində, əsəb sisteminin sakitləşdirilməsində, mədə-bağırsaq sisteminin, xərçəng xəstəliyinin, həmçinin pəhriz saxlayanların müalicəsində mühüm rol oynayan brokoli, kahı və gülkələm yetişdirilmişdir. Artan tələbatın ödənilməsi üçün istixana kompleksinin ərazisində hər biri 250 kvadratmetr olan brokoli, kahı və gülkələm yetişdirmə sahəsi yaradılmış, karkas qurulmuş, neylon örtük çəkilmiş, damcı üsulu ilə suvarma şəbəkəsi qurulmuş, şitil əkini keçirilmişdir. Eyni zamanda torpağın altına üzvi gübrə qatı verilməklə həm torpağın münbitliyi təmin edilmiş, həm də 0-10 dərəcə istilikdə yetişdirilən bu bitkilər üçün təbii istilik sistemi yaradılmışdır. Həmçinin daxili bazarın tələbatına uyğun istixana kompleksində ilk dəfə olaraq müxtəlif növ göyərti, 700 kvadratmetr sahədə badımcan, əsasən Türkiyə, Hollandiya, İspaniya, İtaliyada yetişdirilən və 1 ədədinin çəkisi 25 qram olan Kerri pomidor sortu yetişdirilib sifarişə uyğun olaraq restoranlara göndərilmişdir. Növbəti mövsüm üçün 100 min ton üzvi gübrə ehtiyatı yaradılmışdır. Bazara çıxarılan məhsullar qış mövsümündə bu məhsullara olan tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan vermiş, eyniadlı məhsulun idxal olunmasının qarşısını almışdır. Əvvəllər ancaq daxili bazarın tələbatını ödəyən “Naxçıvan bağları” bu mövsümdə tələbatdan artıq istehsal olunan pomidor, xiyar və digər faraş tərəvəz məhsullarını xüsusi soyuducu kamera ilə təmin olunmuş ağırtonnajlı yük avtomobilləri ilə Bakı şəhərində fəaliyyət göstərən topdansatış bazalarında satışa çıxarmışdır.

Böyükdüz istixana kompleksinin daxili bazarın yüksəkkeyfiyyətli tərəvəz məhsulları ilə təminatında, eləcə də əhalinin məşğulluğunda mühüm payı vardır. Burada 50 nəfər işlə təmin edilib ki, bu işçilərin də əksəriyyəti Böyükdüz kəndinin sakinləridir.

## Quşçuluq və heyvandarlıq təsərrüfatlarının qarışıq qüvvəli yemə olan tələbatı yerli istehsal hesabına ödənilir



***Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər daxili bazarın keyfiyyətli yerli ərzaq məhsulları ilə təminatında mühüm rol oynayan ətlik-südlük mal-qara və ətlik-yumurtalıq quşçuluq təsərrüfatlarının yaradılmasına və mövcud təsərrüfatların genişləndirilməsinə əlverişli şərait yaradıb. Ətlik və südlük maldarlığın inkişafı istiqamətində 40 mindən yuxarı toxum preparatları gətirilib, yerli cins mal-qarada süni mayalanma aparılıb.***

Ümumilikdə, 2008-2015-ci illər ərzində muxtar respublikada 43 min 132 baş mal-qara mayalandırılıb və 28 min 760 baş sağlam bala alınıb. Bundan başqa, “Bərəkət” Məhdud Məsuliyyətli Cəmiyyətinin damazlıq təsərrüfatında yetişdirilən 67 baş damazlıq düyə təsərrüfatlara satılıb. Heyvanların cins tərkibinin yaxşılaşdırılması tədbirlərinin davamı olaraq 2015-ci ildə muxtar respublikaya 249, bütövlükdə isə 1937 baş damazlıq cins mal-qara gətirilərək lizinq yolu ilə satışı həyata keçirilib. Bu dövrdə muxtar respublikada yeni yaradılan və genişləndirilən heyvandarlıq təsərrüfatlarının sayı 275-ə çatdırılıb.

Muxtar respublikada fəaliyyət göstərən quşçuluq təsərrüfatlarının damazlıq quşa olan tələbatını ödəmək məqsədilə “Araz-3” Məhdud Məsuliyyətli Cəmiyyətinə 1 milyon 145 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib, aylıq istehsal gücü 386 min ədəd yumurta və 400 min baş cücə istehsalı sahələri yaradılıb. Ümumilikdə, ötən dövr ərzində muxtar respublikada 54 quşçuluq təsərrüfatı yaradılıb, 5 quşçuluq təsərrüfatının fəaliyyəti genişləndirilib.

Muxtar respublikada ət, süd və digər ərzaq məhsulları istehsal edən müəssisələrin modernləşdirilməsi və bu sahədə yeni müəssisələrin yaradılması istiqamətində ötən dövr ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən 804 investisiya layihəsinin maliyyələşdirilməsinə 42 milyon manata yaxın dövlət maliyyə dəstəyi göstərilib.

Həyata keçirilən tədbirlər nəticəsində qaramalın sayı 2008-ci ilə nisbətən 14 faiz artaraq 109 min 436 başa, qoyun və keçilərin sayı 14,9 faiz artaraq 662 min 842 başa çatıb, quşların sayı isə 67,8 faiz artaraq 1 milyon 153 min 345 olub.

Ümumilikdə, aqrar sahədə aparılan tədbirlər məhsul istehsalının artımına müsbət təsir göstərib, 2015-ci ildə 2008-ci ilə nisbətən ət istehsalı diri çəkidə 8658 ton artaraq 25 min 296,6 tona, süd istehsalı 8201,3 ton artaraq 80 min 243,6 tona, yumurta istehsalı 20 milyon 48 min 500 ədəd artaraq 73 milyon 486 min ədədə, yun istehsalı 114,9 ton artaraq 1009,6 tona çatdırılıb.

“Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən yaradılan, heyvandarlıq və quşçuluğun inkişafında mühüm rol oynayan qarışıq qüvvəli yem istehsalı müəssisəsinin fəaliyyətə başlaması heyvandarlıq və quşçuluq təsərrüfatlarının inkişafında mühüm rol oynayıb.

Qarışıq qüvvəli yem istehsalı sahəsində Almaniya və Türkiyədən alınan, istehsal gücü saatda 3 ton olan müasir texnoloji avadanlıqlar və hər birinin tutumu 10 ton olan 4 ədəd bunker quraşdırılıb. Burada müxtəlif çeşiddə ətlik-südlük mal-qara və ətlik-yumurtalıq quş yemləri istehsalına başlanılıb. Lakin müəssisədə istehsal edilən qarışıq qüvvəli yem muxtar respublikamızda bu məhsula olan illik tələbatın 40 faizini ödəyirdi. Həmin məhsula olan tələbatın 100 faiz yerli istehsal hesabına ödənilməsi üçün dövlət maliyyə dəstəyi ilə qısa zaman ərzində yeni müəssisə yaradılıb. İstehsal gücü saatda 10 ton olan müəssisədə Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar və hər birinin tutumu 20 ton xammal olan 9 bunker quraşdırılıb. Beləliklə, heyvandarlıq və quşçuluq təsərrüfatlarının səmərəli fəaliyyətinə şərait yaradılıb, bu sahədə məhsul istehsalı artımına nail olunub. Muxtar respublikada fəaliyyət göstərən heyvandarlıq və quşçuluq təsərrüfatlarının yeni müəssisədə istehsal edilən qüvvəli yemlə təmin olunması əlavə xərclərin qarşısını alıb.

Onu da qeyd edək ki, muxtar respublikada ətlik-südlük heyvandarlıq və ətlik-yumurtalıq quşçuluq təsərrüfatlarının illik qüvvəli yemə olan tələbatı 70 min tona yaxındır. Bunun 50 min tonu ətlik-südlük heyvandarlığı, 20 min tonu isə ətlik-yumurtalıq quşçuluq təsərrüfatlarının payına düşür. Bu müəssisənin istifadəyə verilməsi ilə qüvvəli yemə olan tələbat 100 faiz ödənilib, idxaldan asılılıq tamamilə aradan qaldırılıb. Hazırda müəssisənin xammala olan tələbatının bir qismi yerli istehsal hesabına ödənilir. Gələcəkdə xammala olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin olunacaqdır.

İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə keyfiyyətli məhsul istehsalı həyata keçirilir. Qarışıq yem istehsalı sahəsində xammal kimi taxıl emalı müəssisəsində istehsal zamanı əldə olunan yarımfabrikatlardan da istifadə olunur. Ayrı-ayrı mərhələlərdən keçməklə hazırlanan 4 çeşiddə məhsul 50 kiloqramlıq kisələrdə “Bərəkət” əmtəə nişanı ilə satışa çıxarılır.

Müəssisədə 25 nəfər daimi işlə təmin olunub, işçilərə normal iş şəraiti yaradılıb.

Heyvandarlıq və quşçuluq təsərrüfatlarının yaradılması və ildən-ilə genişləndirilməsi qarışıq yemə olan tələbatın daha da artmasına səbəb olub. Şərur rayonunda gündəlik istehsal gücü 10 ton olan qarışıq yem və Culfa rayonunda gündəlik istehsal gücü 500 kiloqram olan yem istehsalı sahələri fəaliyyətə başlayıb. Hazırda “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən gündəlik istehsal gücü 10 ton olan qarışıq yem istehsalı sahəsinin yaradılması davam etdirilir.

*Səhifəni hazırladı:* Kərəm HƏSƏNOV

## ABŞ-ın Milvauki vilayətində 20 Yanvar faciəsi ilə əlaqədar Hökumət Bəyannaməsi qəbul edilmişdir

Amerikalı jurnalist və tədqiqatçı Peter Tase Naxçıvan Muxtar Respublikasının tarixi, abidələri, mədəniyyəti ilə bağlı dünyanın nüfuzlu mətbuat orqanlarında yazılarla çıxış edir. Peter Tase həm də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması yönündə səmərəli fəaliyyət göstərir.

Peter Tase Amerika Birləşmiş Ştatlarının Milvauki vilayətinin rəhbəri Chris Abeleyə "Azərbaycanda baş vermiş Qanlı Yanvar faciəsinin xatirəsinə" adlı müraciət məktubu göndərmişdir. Peter Tasenin bu müraciətini nəzərə alan ABŞ-ın Milvauki vilayətinin rəhbəri Qanlı Yanvar faciəsi ilə əlaqədar Hökumət Bəyannaməsi qəbul etmişdir.

## Peter Tasenin "Azərbaycanda baş vermiş Qanlı Yanvar faciəsinin xatirəsinə" adlı müraciət

### M Ə K T U B U

19 yanvar 2016-cı ildə Azərbaycan Respublikası tarixinin faciəvi gününün 26-cı ildönümünü qeyd edəcək.

19-dan 20-nə keçən gecə 26 minlik sovet qoşunu Bakı və ətraf ərazilərə yeridildi. Növbəti günün sonunadək 130 nəfər dinc sakin öldürülmüş, 611 nəfər yaralanmış, 841 nəfər həbs olunmuş və 5 nəfər itkin düşmüşdür. Bu hadisə Azərbaycan vətəndaşları tərəfindən "Qanlı Yanvar" hadisəsi kimi xatırlanır. Bu faciəvi hadisə bütün vətəndaşların yaddaşında silinməz izlər buraxmışdır.

SSR Ali Sovetinin rəyasət heyəti və prezident Mixail Qorbaçovun imzası ilə fövqəladə vəziyyət elan edildikdən sonra sovet qoşunları Bakıya daxil oldu.

Azərbaycan xalqı arasında artan narazılıq fonunda güclü istinad nöqtəsi əldə etmiş Azərbaycan Milli Azadlıq Hərəkatı və ortaya çıxan demokratik qruplar qərara almışdılar ki, parlamenti ələ keçirsinlər. Sovet İttifaqının rəhbərliyi fikirləşirdi ki, asayişin bərpa edilməsi məqsədilə Bakıda qadınların, uşaqların da iştirak etdiyi dinc mitinqləri yatırmaq üçün heç nəyə fərq qoymadan atəş açmaqla qarşısın ala bilər. Etirazçılar Sovet İttifaqından müstəqillik və kommunist rəhbərlərinin uzaqlaşdırılmasını tələb edirdilər.

1990-cı ilin əvvəllərində Sovet İttifaqının işğal niyyəti artan azadlıq hərəkatını boğmağa yönəlmiş, lakin bu addım Azərbaycan milli azadlığı daha da qızışdırmağa təhrik etmişdir. Sonunda Azərbaycanın Moskva yönümlü rəhbərliyi zəiflədi, ölkə xalqın qətiyyəti nəticəsində sovet idarəçiliyindən azad oldu və müstəqilliyini elan etdi.

30 avqust 1991-ci il tarixdə Azərbaycan Parlamenti Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası bəyannaməsini qəbul etmiş və 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Konstitusiya Aktı təsdiq olunmuşdur.

1991-ci ilin noyabr ayı Azərbaycanın müstəqilliyinin beynəlxalq səviyyədə tanınmasının başlanğıcı kimi qeyd olunur. 1992-ci ilin mart ayında ABŞ Bakıda öz səfirliyini açmış, Azərbaycana demokratiyaya keçid və açıq bazar iqtisadiyyatının formalaşması üçün kömək etmişdir.

Bəzi tarixçi müşahidəçilər qeyd edirlər ki, Bakı əhalisinə qarşı törədilən zorakılıqlar digər sovet respublikalarında baş verə biləcək milli oyanışların qarşısının bu şəkildə alına biləcəyi haqqında bir mesaj idi. Bu dəhşətli aktın fonunda Azərbaycan xalqı demokratik prinsiplərə inam gücündən ilham alaraq, həmin dövrdə mövcud olan iqtisadi və sosial problemlərə baxmayaraq, artıq 25 ildir, öz müstəqilliyini davam etdirir.

Bu gün demokratik yolla seçilmiş prezidenti və parlamenti olan, enerji sektorunun üstünlük təşkil etdiyi azad bazar islahatları və ən əsası ərazisində digər dövlətlərə məxsus qoşunlar saxlamayan Azərbaycan ikirəqəmli artım ilə inkişaf edən ölkədir. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü xalqın böyük itkiləri nəticəsində əldə olunmuşdur.

Azərbaycan bu gün də inkişaf etməsinə baxmayaraq, 1990-cı il Qanlı Yanvar qurbanlarını daima xatırlayır və şəhidlərinə ehtiram olaraq demokratiya ideallarına sadiq qalır. Bu dəhşətli faciənin ildönümündə biz Azərbaycan xalqının və dünyada yaşayan azad insanların azadlıq ehkamları və demokratiya ümidləri uğrunda verdikləri şəhidlərini xatırlamalıyıq.

Qanlı Yanvar faciəsi Azərbaycan xalqının müstəqil respublika qurmaq üçün göstərdiyi vətənpərvərlik nümunəsidir.

## Hökumət Bəyannaməsi

1990-cı il yanvarın 19-da Azərbaycan xalqının tarixində 130 dinc sakinin qətlə yetirildiyi, 611 nəfərin yaralandığı, 841 nəfərin həbs olunduğu və 5 nəfərin isə itkin düşdüyü faciə baş vermişdir.

Bu bədbəxt hadisədə həlak olanların əksəriyyəti dinc nümayişçilər, qadınlar və uşaqlar idi.

"Qanlı Yanvar" kimi xatırlanan bu faciə Azərbaycan tarixinə silinməz izlər buraxmışdır.

Qanlı Yanvar Azərbaycanın qazandığı müstəqilliyə verilən ağrılı qiymətdir.

Bu faciə Azərbaycan tarixində dönüş nöqtəsi oldu. Növbəti il silsilə dəyişikliklər baş verdi. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası bəyannaməsi və Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi.

Bu faciənin ildönümündə demokratiya və azadlıq uğrunda həlak olan sakinləri xatırlamaq uyğun olardı. Bu münasibətlə mən Milvauki vilayətinin rəhbəri **CHRİS ABELE** 19 yanvar 2016-cı ildə 26-cı ildönümü qeyd ediləcək

**Qanlı Yanvar**

faciəsini tanıyır, Milvauki vilayəti və Azərbaycan xalqını bu faciəni xatırlamağa və hər bir xalqın azad yaşama hüququnu dəstəkləməyə çağırıram.

**Chris ABELE**
**Milvauki vilayətinin rəhbəri**


Executive Proclamation

WHEREAS, On January 19, 1990 the nation of Azerbaijan endured a tragedy in which 130 people died, 611 were injured, 841 were arrested, and 5 were declared missing; and

WHEREAS, Many of these casualties were peaceful demonstrators, women, or children; and

WHEREAS, This day is remembered as "Black January" and has left a dark stain upon the history of Azerbaijan; and

WHEREAS, Black January is a painful reminder of the price paid for the independence that eventually came to Azerbaijan; and

WHEREAS, This event was a turning point in Azerbaijan's history, the next year brought a cascade of changes including the adoption of the Declaration on the Restoration of the State Independence of the Republic of Azerbaijan and the approval of the Constitutional Act on the State Independence of the Republic of Azerbaijan; and

WHEREAS, On the anniversary of this tragedy, it is appropriate to reflect upon the importance of democracy and the tenants upon which freedom is built; now, therefore

I, CHRIS ABELE, County Executive of Milwaukee County, recognize January 19, 2016 to be the 26th anniversary of

Black January

and encourage the people of Milwaukee County and Azerbaijan to reflect upon the tragedy of the day and recognize the right of people in every nation to be free.

Chris Abele
Milwaukee County Executive

## Prokurorluq orqanları hüquqi-maarifləndirmə tədbirlərini davam etdirir

*Culfa Rayon Prokurorluğunun təşkilatçılığı ilə Xanəgah Kənd Mərkəzində torpaq qanunvericiliyinin pozulmasına görə nəzərdə tutulan cinayət və inzibati məsuliyyət növləri haqqında maarifləndirici tədbir keçirilib.*

Tədbirdə Culfa rayon prokuroru, baş ədliyyə müşaviri Əli Adıgözəlov "Torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə cinayət məsuliyyəti" mövzusunda çıxış edib.

Qeyd olunub ki, 30 sentyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərin torpaq sahələrinin qorunmasında xüsusi yeri vardır. Belə ki, qeyd edilən qanun qüvvəyə minənədək Cinayət Məcəlləsinin 188-ci maddəsi "Torpaq üzərində mülkiyyət hüququnun pozma" adlanırdı və maddəyə əsasən, torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozma, yəni torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və ya becərmə cinayət məsuliyyətinə səbəb olurdu. Cinayət Məcəlləsinə dəyişiklik edilərək 188-ci maddə yeni redaksiyada verilib və həmin maddə "Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma" adlandırılıb.

Sonra torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyət haqqında məlumat verilib.

Culfa rayon prokurorunun köməkçisi Afət Kərimli "Torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə inzibati məsuliyyət" mövzusunda danışaraq deyib ki, Azərbaycan Respublikasında torpaq sahəsi üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət növləri mövcuddur. Bütün mülkiyyət növləri bərabərhüquqludur və dövlət tərəfindən qorunur.

Sonra torpaqlardan məqsədli təyinatına uyğun olmayan hallara görə qanunvericilikdə nəzərdə tutulmuş inzibati məsuliyyət haqqında məlumat verilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

***Almaniya ordusunun 1 sentyabr 1939-cu ildə Polşaya hücumu ilə başlanan İkinci Dünya müharibəsi qısa müddətdə çox böyük miqyas alaraq bir sıra dövlətləri əhatə etmişdi. Azərbaycan xalqının bu müharibədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqların öyrənilməsi ciddi elmi əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev xalqımızın bu müharibədəki xidmətləri haqqında demişdir: "Tarix bu gün bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidmətləri, fəaliyyəti, rolu çox böyük olmuşdur". Bəşəriyyət tarixində çox ağır və dağıdıcı olan İkinci Dünya müharibəsi illərində naxçıvanlılar da döyüşdə və arxa cəbhədə böyük fədakarlıqlar göstərmişlər. Bu istiqamətdə aparılmış tədqiqatlar fonunda Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi, tarix elmləri doktoru Fəxrəddin Cəfərovun "Naxçıvan İkinci Dünya müharibəsi illərində" kitabını uğurlu nəşrlərdən hesab etmək olar.***




*Yeni nəşrlər*

## Naxçıvan İkinci Dünya müharibəsi illərində

2015-ci ildə nəşr olunmuş bu monoqrafiyanın elmi redaktoru və ön sözün müəllifi AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, rəyçisi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlidir.

Əhatəli müqəddimə ilə başlayan əsər səkkiz fəsildən, 1941-1945-ci illər müharibəsində itkin düşən və həlak olanların adlı siyahısından və istifadə olunmuş mənbə və ədəbiyyatlardan ibarətdir.

Kitabın birinci fəslində İkinci Dünya müharibəsinin başlanmasından, faşist Almaniyasının 1941-ci il iyunun 22-də SSRİ üzərinə hücumundan, azərbaycanlılardan ibarət 77-ci, 223-cü, 271-ci, 402-ci və 416-cı diviziyaların formalaşdırılmasından bəhs edilmişdir. Bu fəsildə respublika zəhmətkeşlərinin xalq qoşunu yaradılması işindəki fəallığı, Naxçıvan şəhərində və rayonlarda hava hücumundan və kimyəvi hücumdan müdafiə dərnəklərinin yaradılması, naxçıvanlıların öz iş yerlərinə, ailələrinə göndərdikləri məktublar, İkinci Dünya müharibəsi illərində Fransada, Yuqoslaviyada, İtaliyada, Polşada, Çexoslovakiyada, Albaniyada, Bolqarıstanda, Rumıniyada və Norveçdə misilsiz əsgəri rəşadət göstərən Əli Babayevin, Cəlil Rəfiyevin, Cavad Həkimlinin, Məmmədhüseyn Kərimovun, Mirdamət Seyidovun və başqalarının adları böyük iftixar hissi ilə yad edilərək onların xatirəsinin əziz tutulması məsələlərindən də ətraflı söhbət açılmışdır. Kitabda Moskva, Leninqrad, Sevastopol, Odessa, Stalinqrad, Kiyev və digər şəhərlərin azad edilməsində, Qafqaz və Berlin uğrundakı döyüşlərdə və partizan əməliyyatlarında azərbaycanlı, eləcə də naxçıvanlı döyüşçülərin igidliyi, ümumilikdə, bu müharibədə səfərbərliyə alınmış, yaralanmış, şikəst olmuş insanlar, hətta onların sayı haqqında əsaslı məlumatlar öz əksini tapmışdır.

Monoqrafiyanın ikinci fəslində müxtəlif arxiv materiallarından istifadə olunmaqla Naxçıvan MSSR-də hərbi səfərbərlik haqqında müfəssəl məlumat verilmiş, ayrı-ayrı rayonlar üzrə səfərbər olunanların sayı dəqiqliklə göstərilmişdir. Burada həm də muxtar respublikanın həkim və orta tibb işçilərinin xeyli hissəsinin, o cümlədən həkimlərdən Tofiq Sultanovun, Mehdi Bağırovun, Abbas Əliyevin, Əkbər İsmayılovun, orta tibb işçilərindən Dilbər Təhməzbəyovanın, Zərifə Camalbəyovanın, Səfiyyə Sultanovanın və başqalarının düşmən üzərində qələbə qazanılmasında xidmətlərindən, gənclər təşkilatlarının işindən bəhs olunmuşdur.

"Naxçıvanlılar ön cəbhədə: cəbhə məktubları" adlı üçüncü fəsil zəngin və dolğun məlumatlarla diqqəti cəlb edir. Burada Sovet İttifaqı qəhrəmanları – Qəzənfər Əkbərov, Abbas Quliyev, Nəcəfqulu Rəfiyev, general-mayor Akim Abbasov, digər döyüşçülərdən Qurban Qurbanov, Bağır Bağırov, Ənvər Hacıyev, Sadiq İsmayılov, Bünyad İsmayılov,Yunis Zeynalov, Əjdər Hacıyev, Allahverdi Kərimov, İslam Səfərli, Hacı Rzayev, Kərim Əliyev, Nemət Kərimov, Əli İsmayılov, Əli Əliyev, Baloğlan Rüstəmov, Calal Qurbanov, Rəhim Rəhimov, Adil Cəfərov haqqında geniş məlumat verilmişdir.

Kitabın dördüncü fəslində naxçıvanlıların partizan döyüşlərində və antifaşist müqavimət hərəkatında iştirakı məsələlərinə toxunulmuşdur. Bu fəsildə naxçıvanlı partizanlardan Zəfər Qədimovun, Bəşir Qazıyevin, Əlipaşa Rəcəbovun, Firudin Hüseynovun döyüş yoluna nəzər salınmış, həmyerlilərimiz Yunis Mirzəyevin, Zeynal Zeynalovun, Sadiq Nadirovun, Mahmud Mahmudovun müxtəlif ölkələrdə fəaliyyət göstərən partizan dəstələrindəki igidlikləri işıqlandırılmışdır.

Təqdim olunan kitabın beşinci fəslində arxiv sənədlərindən istifadə olunmaqla naxçıvanlıların arxa cəbhədəki fəaliyyəti təhlil edilmişdir. Müharibə illərində arxa cəbhədə çalışan qadınlar və uşaqlar ön cəbhəni müxtəlif ərzaq məhsulları, müəyyən geyim materialları ilə təmin edir və döyüşən əsgərlərə isti paltar, əlcək və corablar göndərirdilər. Fəsildə həmin məsələlərdən ətraflı şəkildə bəhs edilmişdir.

Monoqrafiyanın "Naxçıvanlıların işğaldan azad olunmuş rayonlara köməyi" adlanan altıncı fəslində muxtar respublika zəhmətkeşlərinin – Babək, Şərur, Şahbuz və Ordubad rayon sakinlərinin Çərkəs və Çərkassk vilayətlərinə göstərdikləri kömək və yardımdan söhbət açılır.

Əsərin yeddinci fəslində İkinci Dünya müharibəsi illərində Naxçıvanın sosial-iqtisadi həyatına xüsusi diqqət yetirilmiş və bu məsələlər müəllif tərəfindən tədqiq edilərək ümumiləşdirilmişdir.

Kitabın sonuncu – səkkizinci fəslində müharibə illərində Naxçıvanda mədəniyyət, təhsil, elm, ədəbiyyat, mətbuat və incəsənət sahələrində həyata keçirilən tədbirlərdən bəhs olunmuşdur.

300 səhifəlik "Naxçıvan İkinci Dünya müharibəsi illərində" kitabının sonunda verilmiş 1941-1945-ci illər müharibəsində itkin düşən və həlak olanların adlı siyahısı əsərə olan marağı təmin edən əsas amillərdən biridir.

Kitabın praktik əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Naxçıvan tarixi ilə məşğul olan tədqiqatçılar, ali məktəblərin müəllim və tələbələri, magistrantlar bu kitabdan istifadə edə bilərlər.

Tarix elmləri doktoru Fəxrəddin Cəfərovun tədqiqatları həmişə maraqla qarşılanmışdır. O, elmi axtarışları və əməli fəaliyyəti ilə tanınan alimlərimizdəndir. Bu kitab da müəllifin yaradıcı işinin, gərgin zəhmətinin və çoxillik araşdırmalarının nəticəsidir. Yüksək məsuliyyət hissi ilə hazırlanmış bu əsər çox dəyərli və qiymətli bir mənbədir. "Naxçıvan İkinci Dünya müharibəsi illərində" adlı kitabı Azərbaycan tarixşünaslığına və Naxçıvanşünaslığa sanballı töhfə hesab etmək olar.

**Yaşar RƏHİMOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

## "Ac hərflər" tamaşası xalq teatrının səhnəsində



***Rza Təhmasib adına Şərur Xalq Teatrında görkəmli yazıçı və dramaturq Əbdürrəhim bəy Haqverdiyevin "Ac hərflər" birpərdəli vodevili əsasında hazırlanmış tamaşa teatrsevərlərə təqdim edilib.***

Qeyd edək ki, 1938-ci ildə dram dərnəyi kimi fəaliyyətə başlayan Şərur Xalq Teatrı 1981-ci ildə xalq teatrı statusu alıb. Kollektiv müxtəlif illərdə "Solğun çiçəklər", "Vaqif", "Ölülər", "Tamahkar", "Rəhmə gəl, mələyim", "Müsyö Jordan və Dərviş Məstəli şah", "Qısqanc ər", "Yuxu" və başqa səhnə əsərləri ilə tamaşaçıların görüşünə gəlib. Xalq teatrı 2008-ci ildə Bakı şəhərində keçirilən xalq teatrlarının respublika müsabiqəsində "Müsyö Jordan və Dərviş Məstəli şah" tamaşası ilə II yerin diplomuna layiq görülüb.

"Ac hərflər" tamaşasında hadisələr ilk baxışda çox sadədir. Ötən əsrin əvvəllərində tipik bir Azərbaycan şəhərindəki yeməkxanaların birində, daha doğrusu, Həsən dayının "Atanrəhmət" yeməkxanasında baş verən hadisələr və söhbətlər dövrün koloritini canlandırır. Həsən dayı (Neymət İslamoğlu) və onun yeməkpaylayanı Zərbəli (Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Elçin Arzumanlı) bura gələn "ac hərflər"in kələyinin qurbanı olurlar. Yeməkxanaya gələn müxtəlif personaj və obrazlar böyük bəstəkarımız Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" komediyasındakı tipləri xatırladırlar. Məşhur komediyadakı qonaqlıq səhnəsindən fərqli olaraq buradakı tiplər yeməkxanada yediklərinin pulunu ödəmək əvəzinə müxtəlif kələk və fırıldaqlara əl atırlar. Bəxtsiz Həsən dayı və Zərbəlinin acizliyi də gülüş doğurur.

Maraqlıdır ki, bu yeməkxanaya gələnlərin, məsələn, qəzetçi Mirzə Mahmud (Məhərrəm Əbilsoy), aktyor (Nəsimi Məmmədzadə) və başqaları hərəsi bir sənətin sahibidirlər. Bura gələnlər içərisində "quru bəylər" də az deyil. Lakin onların heç biri yediyinin pulunu vermək istəmir. Hətta qəzetçi Mirzə Mahmud kələk qurub Həsən dayının son manatını da əlindən alır. Dövrün "ac hərfləri" öz kələkləri ilə Həsən dayını aldatmaqla gülüş hədəfinə çevrilirlər. Tamaşaçı müxtəlif tiplərin dialoqlarında o dövrün gülüşdoğuran mənzərələrini öz gözü ilə görür. Tamaşada rol almış aktyorlar Arif Nağıyev (İbrahim bəy), Çakər Məmmədov (Süleyman), Salman Şirəliyev, İlham Quliyev (Rza), Əfsər Novruzov (Lətif) bu tiplərin dinamik canlandırılmasına çalışırlar.

"Ac hərflər" tamaşasında kütləvi səhnələrdə Aynur Cəfərova, Nilufər Əhmədova, Gülnar Quliyeva və Uğur Cəfərov rol alıblar.

Quruluşçu rejissor Nəsimi Məmmədzadə musiqi və səhnə tərtibatını da öhdəsinə götürərək şən bir tamaşa yaratmağa müvəffəq olub.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova və Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov kollektivi təbrik edərək aktyorlara yaradıcılıq uğurları arzulayıblar.

**Əli RZAYEV**

## Ustad dərsləri davam etdirilir

***Muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində ustad dərslərinin keçilməsi davam etdirilir.***

Dünən Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan Culfa Şəhər və Bənəniyar Kənd Uşaq Musiqi məktəblərinin şagird və müəllimləri üçün ustad dərsləri təşkil olunub.

Ustad dərsləri başlamazdan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının aparıcı məsləhətçisi Leyla Əlimərdanova çıxış edərək bildirib ki, belə dərslərin keçilməsində məqsəd bu sahədə tədrisin səviyyəsinin yüksəldilməsinə kömək göstərməkdir.

Sonra Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Nərminə Qədimova (fortepiano ixtisası üzrə), Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov (tar ixtisası üzrə), Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Əbülfət Babayev (kamança ixtisası üzrə) ustad dərsləri keçiblər. Ustad dərslərinin gedişində müəllim və şagirdləri maraqlandıran suallar cavablandırılıb.

## Növbəti test-sınaq imtahanı



Muxtar respublikanın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında ümumi test-sınaq imtahanı keçirilib.

Ənənəvi olaraq təşkil edilən belə imtahanlarda məqsəd şagirdlərin biliyinin yoxlanılması və elmlərə marağının artırılması, ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarına hazırlıqdır.

İmtahanlar səhər saat $10^{00}$-da başlayıb və iki saat yarım davam edib. Şagirdlərə bilik və bacarıqlarını nümayiş etdirmək üçün hərtərəfli şərait yaradılıb.

Məlumat üçün bildirək ki, şagirdlərə paylanan iş nömrələri vasitəsilə imtahanın nəticələrini ***www.istedad21.com*** saytından öyrənmək olar.

**Xəbərlər şöbəsi**

## Gəlin bu barədə düşünək

***Bu günlərdə Naxçıvan şəhərinin "İstiqlal" küçəsində yerləşən "Amin" adlı ərzaq mağazasında gördüyüm mənzərə məni yenidən çörək satışı ilə bağlı mövzuya qayıtmağa məcbur etdi. Olduğum mağazada alıcılar çörək alarkən çörəkləri əllə yoxlayır, sonra alırdılar. Satıcı isə buna qətiyyən müdaxilə etmirdi. Bu mənzərəni, yəqin ki, oxucularımız da müşahidə ediblər. Təbii ki, burada həm satıcı, həm də alıcı böyük məsuliyyətsizlik edir. Amma bu məsuliyyətsizliyin insan sağlamlığına ciddi təhlükə yaratdığı, bəlkə də, heç kəsi düşündürmür.***



Xüsusilə qeyd etməliyəm ki, son zamanlarda bir çox ölkələrdə müxtəlif infeksion xəstəliklərin yayılması ilə bağlı ciddi həyəcan siqnalı çalınır. Bu mənada, ərzaq mağazalarında bəzi qida məhsullarının satışına ciddi nəzarət olunmalıdır. Bunların sırasında hər gün istifadə etdiyimiz çörək xüsusi yer tutur. Unudulmamalıdır ki, çörək satışı üçün standartlar müəyyənləşdirilib. Qəzetimizin ötən nömrələrində də bu mövzuya toxunaraq dəfələrlə qeyd etmişik ki, çörək qablaşdırılması nəzərdə tutulmayan ərzaq məhsulları sırasına daxildir. Amma qablaşdırılmasa da, çörəyə əl vurmaq yolverilməzdir. Ona görə çörək satılan yer alıcıdan və kimyəvi sənaye məhsullarından kənar olmalıdır. Çörək yuyulmur, başqa formada dezinfeksiya oluna bilmir ki, mikrobları məhv etmək mümkün olsun. Həmçinin çörək alıcı tərəfindən əllə yoxlanıla bilməz, satıcı da çörəyə əl vura bilməz. Satıcı mütləq xalat geyinməli, xüsusi papaq qoymalıdır. Satış yerlərində çörək saxlanılan rəflərdəki çörək ovuntuları xüsusi fırça ilə təmizlənməlidir. Taxta rəflər həftədə 2 dəfə olmaqla, 3 faizli sirkə turşusunda isladılmış dəsmalla təmizlənməlidir. Ancaq Naxçıvan şəhərindəki əksər ərzaq mağazalarında bunlara əməl edilmir. "Dostluq" adlı ərzaq mağazasında qısa müşahidə apardıq. Burada çörək yığılan rəf girişdə quraşdırılıb və mağazaya daxil olan alıcı asanlıqla çörəyə toxuna bilir. Satıcıya ünvanladığımız "Alıcılar rəfdəki çörəyi açıq əllə götürürlər?" sualımıza o, "Vətəndaşlara necə müdaxilə edə bilərik, özləri götürür", – deyə cavab verir.

"İstiqlal" küçəsindəki "Nur Qida" ərzaq mağazasında çörək saxlanılan yerin şüşələri ləkədən görünmürdü. Həmin küçədə yerləşən daha bir neçə ərzaq mağazasında da bu mənzərəni müşahidə etdik.

Nizami küçəsində yerləşən ərzaq mağazalarının əksəriyyətində hər bir alıcı özü çörəyi seçib götürürdü. Ya da satıcı əlcək geyinmədən yuyucu kimyəvi məhsulları torbaya qoyub, sonra da çörəyə əlcəksiz toxunaraq gigiyenik baxımdan təhlükəli vəziyyət yaradırdı. Belə ki, mağazalarda "Çörəyə əllə toxunmaq olmaz" xəbərdarlığı olan elanlara rast gəlsək də, alıcılar buna məhəl qoymurlar. Müşahidələrimiz zamanı bir sıra ticarət obyektlərində çörəyin dükanın qarşısında, yerə qoyulmuş qutularda tozla təmas halında satılmasının da şahidi olduq.

Müşahidələrimiz onu göstərir ki, sahibkarlar, satıcılar bu sahəyə maraqlı deyillər. Onlar çörək satışına yalnız gəlir mənbəyi kimi baxırlar. Bəs alıcılar? Belə çörək satışına indiyə qədər hansımız etiraz etmişik? Çörəyin gigiyenik qaydalara uyğun satışının həyata keçirilməsinə hər kəs yardımçı olmalıdır. Bu hallara biganə yanaşmamalıyıq.

Çörək mövzusu barədə danışarkən çörəkdən israfçılıqla istifadə edilməsini də xüsusi vurğulamalıyam. Yaqin hamımız məhəllələrimizdə iri, metal qutuların dəstəklərindən asılmış içərisində çörək olan torbaları tez-tez görürük. Bu, insanda böyük təəssüf hissi doğurur. Belə hal, demək olar ki, hər gün təkrar olunur. İnsanlarda israfçılıq, gündəlik qidamız olan müqəddəs nemətə – çörəyə ehtiramsızlıq haradan yaranıb? Belə bir hərəkətə qarşı susmaq, biganəlik göstərmək, günah işə rəvac vermək müqəddəs nemətə ehtiramsızlığı davam etdirmək deməkdir. Unutmaq olmaz ki, çörək əvəzedilməz nemətdir. Hər yerdə süfrəyə birinci çörək gətirirlər. Ona hörmətsizlik evin bərəkətini qaçırır. Çörəyi uca tutmaq və ona ehtiramla yanaşmaq hamımızın borcudur. Bu yerdəcə ötən əsrin 90-cı illərini bir daha xatırlamaq yerinə düşər. Yaddaşımızı təzələmək üçün "Şərq qapısı" qəzetinin 1993-cü il 9 yanvar tarixli nömrəsində dərc olunan "Bu günümüzdə çörək növbəsi" sərlövhəli yazıdan aşağıdakı sətirləri oxucularımızın nəzərinə çatdırıram: *"Naxçıvan 1 nömrəli çörək zavodunun nəzdindəki mağazadan hər gün yüzlərlə adam çörək alır. Əgər buna almaq demək mümkündürsə. Burada saatlarla dayanmağın "ləzzətini" görənlər görüb. Gününün hansı saatında getsən, burada tünlüklə rastlaşarsan. Adı növbə olan bu dəstədə adamlar dörd cərgə ilə dururlar. Gələn də bilmir ki, kim kimdən sonradır".*

Bu sətirləri oxumaq kifayət edər ki, biz həmin dövrün çətinliklərini hiss edək. Çörəklə sınağa çəkildiyimiz vaxtlar arxada qalıb. Amma bunları yada salmaqda məqsədim budur ki, o günləri yaşamışıq. Tanrıya şükürlər olsun ki, bu gün mağazaların piştaxtalarında, rəflərində istənilən növdə, istənilən miqdarda çörək vardır. İndi çörəyə bu cür münasibət bizə yaraşmaz. Müqəddəs nemət olan çörəyin ehtiramını qorumaq, onun istifadəsində israfçılığın qarşısını almaq hamımızın borcudur. Gəlin bu barədə düşünək.

**✍ Sara ƏZİMOVA**

## Boksçumuz beynəlxalq turnirin qalibi olub

Macarıstanın Debretsen şəhərində boks üzrə beynəlxalq turnirə yekun vurulub. 29 ölkənin 168 boksçusunun mübarizə apardığı turnirdə Azərbaycan millisi də çıxış edib. 5 gün davam edən beynəlxalq turnirdə "Bakı-2015" Avropa Oyunlarının, dünya, Avropa, Asiya və Cənubi Amerika çempionatlarının mükafatçıları mübarizə aparıblar. Azərbaycan komandası Macarıstana 7 dəri əlcək sahibi ilə yollanıb.

Millimizin heyətində 56 kiloqram çəki dərəcəsində rinqə Naxçıvan boks məktəbinin yetirməsi Tayfur Əliyev çıxıb. Turnirin ilk mərhələsində idmançımız Mərakeşi təmsil edən Muhammed Hamout ilə qarşılaşıb və qalib gəlib. Növbəti görüşdə onun rəqibi iordaniyalı Muhammed Alşadi olub. Hər üç raundda rəqibini məğlub edən dəri əlcək sahibimiz yarımfinala yüksəlib. Finala gedən yolda Tayfur Əliyev braziliyalı Karlos Roşanı da mübarizədən kənarlaşdırıb. Həlledici qarşılaşmada dəri əlcək sahibimiz Böyük Britaniya təmsilçisi Aşfaq Qaisdadi ilə qarşılaşıb. Daha üstün görüş keçirən Tayfur Əliyev qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Sonda idmançımıza diplom, medal və kubok təqdim edilib.

## Boks üzrə yoldaşlıq görüşü

Culfa rayonunda boks üzrə yoldaşlıq görüşü keçirilib. Ordubad və Culfa Rayon Gənclər və İdman idarələri ilə Boks Federasiyasının birgə təşkil etdiyi görüşdə hər iki rayonun boksçuları qarşılaşıb. 10 çəki dərəcəsində dəri əlcək sahiblərinin mübarizə apardığı yoldaşlıq görüşündən öncə çıxış edən federasiyanın sədr müavini Məmmədcəfər Əliyev bildirib ki, bu idman növünün inkişafı üçün muxtar respublikada hərtərəfli şərait yaradılıb. Məqsəd şəhər və rayonlarda boksun kütləviliyinə nail olmaq, gənclər arasında boks idman növünü təbliğ etməkdir.

Ordubad boksçuları culfalı həmkarlarını 6:4 hesabı ilə məğlub etməyi bacarıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası

### *2016-cı il üçün tələb olunan ərzaq məhsullarının satın alınması üzrə açıq tender elan edir*

Tender 3 (üç) lot üzrə keçirilir.

*Lot-1: 1-ci növ un – 200 ton*

*Lot-2: kartof – 200 ton*

*Lot-3: balıq konservi – 30 ton*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin "Əsas şərtlər" toplusunu Naxçıvan şəhərində yerləşən "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının Ərzaq və yem bölməsindən (əlaqələndirici şəxs: Muradov Fariz, telefon: 050-381-26-66) ala bilərlər.

*Lot-1–50 manat*

*Lot-2–50 manat*

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*Təşkilat: Naxçıvan Şəhər Maliyyə Şöbəsi.*

*Hesab: 253205000*

*VÖEN: 0200004671*

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının büdcədənkənar xüsusi hesabına.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Sənədlər 10 mart 2016-cı il tarixdə saat $13^{00}$-dək qəbul olunur. Təklif zərfləri 15 mart 2016-cı il tarixdə saat $11^{00}$-də yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının tender komissiyası**

### *İtmişdir*

Mahmudov İsmayıl Tofiq oğlunun adına Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən 17 may 2010-cu il tarixdə verilmiş 00167 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Mühbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 122